# AVROPA İTTIFAQI
# VƏ AZƏRBAYCAN RESPUBLIKASI ARASINDA
# ENERJI SAHƏSINDƏ STRATEJI TƏRƏFDAŞLIQ HAQQINDA
# ANLAŞMA MEMORANDUMU

**PREAMBULA**

Genişlənmiş Avropa İttifaqı, onun qonşuları və tərəfdaş ölkələri üçün Enerji Siyasətinin İnkişafına dair Komissiyanın Şuraya və Avropa Parlamentinə Müraciətinə *istinad edərək;*

Komissiyanın "Davamlı, rəqabət qabiliyyətli və təhlükəsiz enerji üzrə Avropa Strategiyası" haqqında Yaşıl Sənədinə, həmçinin enerji sektorunda onun əsas təchizatçıları və tranzit ölkələrlə əlaqələrin genişləndirilməsinin Avropa İttifaqı (Aİ) üçün əhəmiyyətini vurğulayan Aİ-nin Avropa Şurasının 23-24 mart və 15-16 iyun 2006-cı il tarixli toplantılarının nəticələrinə *istinad edərək*;

2005-ci ilin fevral ayında Prezident Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Yanacaq-Enerji Kompleksinin İnkişafı üzrə Dövlət Proqramına (Əlavə I) və 2004-cü ilin oktyabr ayında Prezident Sərəncamı ilə təsdiq edilmiş Alternativ və Bərpa Olunan Enerji Mənbələrinin İstifadə olunması üzrə Dövlət Proqramına (Əlavə II) *istinad edərək*;

Aİ və Azərbaycanın enerji sahəsində müştərək maraqları bölüşdüklərini və hər ikisinin özlərinin müvafiq enerji bazarlarının inteqrasiyasından faydalana biləcəklərini, bununla da hər iki tərəfin enerji təhlükəsizliyini gücləndirəcəyini *etiraf edərək*. Bu kontekstdə, Azərbaycan tərəfindən Aİ-nin enerji qanunvericiliyinə tədrici uyğunlaşma, Azərbaycanın Aİ ilə tədrici iqtisadi inteqrasiyası və siyasi əməkdaşlığın dərinləşdirilməsi üzrə məqsədi yönümdə mühüm addım təşkil edəcəkdir.

Aİ və Azərbaycanın Avropa Qonşuluq Siyasəti (AQS) çərçivəsində enerji üzrə əməkdaşlıqlarını inkişaf etdirməyə qərar verdiklərini və Aİ-Azərbaycan Fəaliyyət Planına (FP) Aİ və Azərbaycanın enerji qanunvericiliyinin tədrici yaxınlaşmasına və onların müvafiq enerji bazarlarının inteqrasiyasına yönəlmiş enerji ilə bağlı tədbir və məqsədlərin daxil edildiyini *nəzərə alaraq*;

Aİ və Azərbaycanın, yüksək səviyyəli görüşlərdə təsdiq edildiyi kimi və həmçinin Aİ-Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsində 2005-ci ildə Enerji və Nəqliyyat üzrə Alt-komitənin yaradılması vasitəsi ilə bu məqsədlərin həyata keçirilməsində sürətlə irəliləməyə qətiyyətli olduqlarını *nəzərə alaraq*;

Xüsusilə Avropa enerji təhlükəsizliyinin möhkəmləndirilməsində təhlükə və risklərin aradan qaldırılması baxımından region dövlətlərinin suverenliklərinin, ərazi bütövlüklərinin və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmamazlığının təmin olunmasının əhəmiyyətini *vurğulayaraq*;

Son Yaşıl Sənəddə təfərrüatı ilə verilmiş enerji səmərəliliyinə dair Aİ-nin yeni təşəbbüsünü *qeyd edərək;*

Yuxarıdakılarla əlaqədar olaraq, Avropa İnvestisiya Bankı (AİB) və Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) bu Strateji Tərəfdaşlığın həyata keçirilməsində yaxından cəlb olunmalarının lazımlığını *nəzərə alaraq;*

Aİ-Azərbaycan ikitərəfli əlaqələrində enerji sektorunun mühüm ünsürlərdən biri olduğunu və Tacis Milli Proqramı və İnogate Proqramı altında Birliyin yardımı çərçivəsindəki əməkdaşlıqdan hər iki tərəfin faydalandığını *xatırladaraq*

Belə ki:

1. Təbii neft və qaz resurslarının istismar və ixracı, həmçinin bu resursların nəqlinin və tranzitinin sürətli inkişaf potensialı ilə enerji sektoru Azərbaycanın iqtisadi və sosial inkişafının əsas amillərindən biridir və belə də qalacaqdır. Aİ-nin daxili enerji bazarına tədricən yaxınlaşma və nəticə etibarilə ona inteqrasiya Aİ və Azərbaycan üçün birgə prioritet olaraq qalır.

2. Aİ və Azərbaycan enerji siyasəti sahəsində eyni çağırışlarla üzləşir. Enerji təchizatının diversifikasiyası və təhlükəsizliyi, enerji bazarı sahəsində islahatların dərinləşdirilməsi, enerji infrastrukturlarının inkişafı və müasirləşdirilməsi, enerji səmərəliliyi, enerjiyə qənaət və bərpa olunan enerji mənbələrinin istifadəsi hər iki tərəf üçün əsas maraq doğuran məsələlərdir. Azərbaycan və Aİ arasında enerji sahəsində genişlənən əməkdaşlıq zəruri islahatları inkişaf etdirə bilər, həmçinin yaxşılaşdırılmış sərmayə mühiti ilə birgə həm Beynəlxalq Maliyyə İnstitutları, həm də özəl sektor tərəfindən Azərbaycanın enerji sektoruna zəruri sərmayənin cəlb edilməsini asanlaşdıra bilər.

3. Azərbaycan sürətlə əsas karbohidrogen istehsalçısına, həmçinin potensial olaraq, Xəzər hövzəsi və Mərkəzi Asiyadan Aİ-nin karbohidrogen təchizatı üçün vacib tranzit ölkəsinə çevrilir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının müvəffəqiyyətlə tamamlanması Azərbaycandan və Xəzər hövzəsinin digər hasilatçılarından böyük həcmdə xam neftin Avropa və dünya bazarlarına çatdırılmasında iqtisadi cəhətdən cəlbedici marşrutu təmin edir. Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının nəqlində regiondakı əlavə imkanların inkişaf etdirilməsi də gözlənilə bilər. Bundan əlavə, Şah-Dəniz qaz hasilatının inkişafı və Xəzər regionundan Aİ bazarlarına təbii qazın mümkün tranziti əsas məsələ kimi gündəlikdə durur. Bu kontekstdə, təhlükəsiz, şəffaf və etibarlı tranzit sisteminin təmin edilməsi həm Avropa İttifaqı, həm də Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. Avropa enerji təhlükəsizliyinin gücləndirilməsi nöqteyi-nəzərindən hər iki tərəf Bakı-Tbilisi-Ərzurum qaz kəməri və müvafiq multimodal nəqliyyat layihələri daxil olmaqla, Xəzər regionundan gələn bütün nəqliyyat növlərinin inkişafının Avropa enerji təhlükəsizliyi üçün həyati rolunu xüsusilə vurğuladılar.

4. Azərbaycan 2004-cü ilin noyabr ayında Bakıda Nazirlər səviyyəsində keçirilmiş Konfransda irəli sürülmüş Aİ, Qara dəniz regionu, Xəzəryanı dövlətlər və onların qonşuları arasında enerji əməkdaşlığını genişləndirməsinə dair Avropa Komissiyasının təşəbbüsünün fəal iştirakçısıdır.

5. Azərbaycanın karbohidrogen sənayesi son on illikdə iri neft və qaz şirkətlərinin fəaliyyətilə sürətlə inkişaf etmişdir. Yanacaq-Enerji Kompleksinin İnkişafı üzrə Dövlət Proqramına uyğun olaraq (Əlavə I), öz insan resurslarının, təcrübə və səriştəsinin artırılması Azərbaycanın enerji sektoru üçün böyük əhəmiyyət kəsb edir.

*Hər iki tərəf* etiraf edir ki, müvafiq öhdəliklər və stimullar baxımından hərtərəfli və balanslaşdırılmış yanaşmanın qəbul edilməsi məqsədilə, eyni zamanda müxtəlif enerji alt-sektorları arasındakı əlaqələri nəzərə olaraq, onlar dörd xüsusi sahədə əməkdaşlıq etməyi qərara alırlar:

1. Enerji sahəsində Azərbaycanın qanunvericiliyinin Birliyin qanunvericiliyi ilə tədricən uyğunlaşdırılması üçün elektrik enerjisi və qaz bazarlarının yaxınlaşmasına aparan strategiya və proqramın hazırlanması.

2. Azərbaycan və Xəzər hövzəsindən Aİ istiqamətindəki enerji təchizatının və tranzit sistemlərinin etibarlılığının və təhlükəsizliyinin artırılması.

3. Enerjiyə qənaət üzrə konkret tədbirlər və iqlim dəyişikliyinin qarşısının alınması tədbirləri, həmçinin Kioto Protokolu çərçivəsində müvafiq mexanizmlərin istifadəsi daxil olmaqla, Azərbaycanda enerjiyə tələbatın idarə edilməsi üzrə hərtərəfli siyasətin hazırlanması. Bu baxımdan, bərpa olunan enerji növlərinin inkişaf etdirilməsi də prioritet məsələ olmalıdır.

4. Texniki Əməkdaşlıq və təcrübə mübadiləsi.

## 1. ELEKTRİK ENERJİSİ VƏ QAZ BAZARLARININ YAXINLAŞMASI İSTİQAMƏTİNDƏ ENERJİ SAHƏSİNDƏ AZƏRBAYCANIN QANUNVERİCİLİYİNİN BİRLİYİN QANUNVERİCİLİYİ İLƏ TƏDRİCƏN UYĞUNLAŞDIRILMASI.

1.1 Azərbaycanın elektrik enerjisi və qaz bazarlarının Avropa İttifaqının daxili enerji bazarına tədricən yaxınlaşmasını mümkün etmək üçün hər iki tərəf yüksək dərəcədə səy göstərəcəklər. Bunun yerinə yetirilməsi üçün enerji, ətraf mühit, rəqabət və bərpa olunan enerji mənbələrinə dair Birliyin qanunvericiliyinin əsas ünsürlərinin həyata keçirilməsi tələb olunur. Aİ-nin texniki yardımı vasitəsilə, həmçinin Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi və Avropa Qonşuluq Siyasəti çərçivəsində Fəaliyyət Planının müddəalarına müvafiq olaraq, hər iki tərəfin razılaşdıracağı vaxt cədvəlinə uyğun olaraq, Azərbaycan öz qanunvericiliyini Birliyin müvafiq qaydalarına tədricən uyğunlaşdırmağa səy göstərəcəkdir.

1.2 Mövcud bazar strukturundan açıq bazara səlist keçid üçün imkan yaratmaq məqsədi ilə Azərbaycan həmçinin aşağıdakı məsələləri əhatə etməyə səy göstərəcəkdir:

a) Elektrik enerjisi tariflərinin və qazın qiymətləndirilməsinin islahatı,

b) Zərurət olduqda aztəminatlı istehlakçılara islahatların təsirini azaltmaq üçün yanaşmalar,

c) Tənzimlənməyən itkilərin və şəbəkə itkilərinin azaldılması,

d) Tələbatın azaldılması üçün zəruri olan enerji səmərəliliyinin artırılması,

e) Elektrik enerjisi və qaz ödənişlərinin toplanılmasının təkmilləşdirilməsi üçün tədbirlər,

f) Azad bazar çərçivəsini saxlamaqla, təchizatın çeşidliliyi və təhlükəsizliyi, o cümlədən enerji diversifikasiyası, məsələn, bərpa olunan enerji mənbələri,

g) Səmərəliliyin, ətraf mühitin təhlükəsizliyinin, fəaliyyətin etibarlılığının və təchizatın təhlükəsizliyinin artırılması nöqteyi-nəzərindən elektrik enerjisi istehsalında enerji qarışığının optimallaşdırılması.

1.3 Açıq bazarın qurulmasının asanlaşdırılması nöqteyi-nəzərindən, Azərbaycan zəruri hallarda, açıq elektrik enerjisi və qaz bazarının fəaliyyət göstərməsi üçün qurumların yaradılması və ya onların rolunun gücləndirilməsi üçün səy göstərəcəkdir, məhz:

a) tərəflərin razılaşacağı tarixədək, ən azı Elektrik Enerjisi və Qaz Məsələlərinə dair Direktivlərdə[1] göstərilən cavabdehliklərə malik olan və elektrik enerjisi və qaz sənayesinin maraqlarından asılı olmayan Enerji Məsələlərini Tənzimləyən Qurum;

b) tərəflərin razılaşacağı tarixədək, ötürməyə aid olmayan digər fəaliyyətlərdən müstəqil olmalarına dair Elektrik Enerjisi və Qaz Məsələlərinə dair Direktivlərin[2] müvafiq maddələrində göstərilən meyarlara cavab verən və orada istinad olunan vəzifələri yerinə yetirən elektrik enerjisi və qaz ötürücü sistemi operatorları.

1.4 Azərbaycanda enerji sektorunun inkişafı və təkamülü baxımından, həmçinin Qonşuluq Siyasəti çərçivəsində Fəaliyyət Planında müəyyən edildiyi kimi, Azərbaycan Hökuməti Azərbaycanda Yanacaq-Enerji Kompleksinin İnkişafı üzrə Dövlət Proqramı və Alternativ və Bərpa olunan Enerji Mənbələrindən İstifadə edilməsi üzrə Dövlət Proqramına uyğun olaraq sektorun zəruri struktur islahatlarının aparılması öhdəliyini götürür. Dövlət Proqramlarının əsas məqsədlərinə aşağıdakılar daxildir:

- ən yaxşı təcrübə və standartlara uyğun olaraq prioritet inkişaf hədəflərinin müəyyən edilməsi,
- təchizat ilə bağlı fəaliyyət səmərəliliyinin və enerji istehlakçıları tərəfindən istifadəsinin təkmilləşdirilməsi,
- enerji sektorunda sərmayə və ətraf mühitlə bağlı təhlükəsizliyin yaradılması (təşviq) edilməsi.

---

1 Elektrik enerjisinin daxili bazarı üçün ümumi qaydalara dair Avropa Parlamenti və Şuranın 26 iyun 2003-cü il tarixli 2003/54/EC saylı Direktivinin 23-cü Maddəsi və 15.7.2003 tarixində L176 Rəsmi Jurnalında dərc edilmiş onu ləğv edən 96/92/EC saylı Direktiv; və təbii qazın daxili bazarı üçün ümumi qaydalara dair Avropa Parlamenti və Şuranın 26 iyun 2003-cü il tarixli 2003/55/EC saylı Direktivinin 25-ci Maddəsi və 15.7.2003 tarixində L176 Rəsmi Jurnalında dərc edilmiş onu ləğv edən 98/30/EC saylı Direktiv.

2 Elektrik enerjisinin daxili bazarı üçün ümumi qaydalara dair Avropa Parlamenti və Şuranın 26 iyun 2003-cü il tarixli 2003/54/EC saylı Direktivinin 9 və 10-cu Maddələri və 15.7.2003 tarixində L176 Rəsmi Jurnalında dərc edilmiş onları ləğv edən 96/92/EC saylı Direktiv; və təbii qazın daxili bazarı üçün ümumi qaydalara dair Avropa Parlamenti və Şuranın 26 iyun 2003-cü il tarixli 2003/55/EC saylı Direktivinin 8 və 9-cu Maddələri və 15.7.2003 tarixində L176 Rəsmi Jurnalında dərc edilmiş onları ləğv edən 98/30/EC saylı Direktiv.

Hər iki Tərəfin dəstəyi ilə bu Dövlət Proqramlarının həyata keçirilməsi hazırkı Bölmə çərçivəsində yuxarıda qeyd edilən bazar islahatlarını yenidən gücləndirəcəkdir.

1.5 Hər iki tərəf Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünü (MSŞT) Azərbaycanın uğurla yerinə yetirməsini qeyd edir və gələcək əməkdaşlıq Avropa Qonşuluq Siyasəti Sənədi çərçivəsində nəzərdə tutula bilər.

1.6 Hər iki tərəf Azərbaycanın enerji sektorunun Aİ-nin enerji bazarına proqressiv inteqrasiyasını dəstəkləmək üçün Aİ-nin texniki yardım proqramları, xüsusilə də Eyniləşdirmə Proqramı çərçivəsində nəzərdə tutulmuş əməkdaşlığın əhəmiyyətini etiraf edirlər.

## 2. AZƏRBAYCAN VƏ XƏZƏR DƏNİZİ HÖVZƏSİNDƏN Aİ İSTİQAMƏTİNDƏKİ ENERJİ TƏCHİZATININ VƏ TRANZİT SİSTEMLƏRİNİN ETİBARLILIĞININ VƏ TƏHLÜKƏSİZLİYİNİN GÜCLƏNDİRİLMƏSİ

2.1 Azərbaycan bir əsrdən artıqdır ki, neft ixrac edir. Bakı-Tbilisi-Ceyhan kəmərinin inşasının uğurla tamamlanması Rusiyadan keçən Şimali İlkin Neft kəməri, Gürcüstanın Supsa şəhərinə Qərbi İlkin Neft kəməri və dəmir yolu ilə Gürcüstanın Batumi şəhərinə gedən mövcud marşrutlara əlavə olaraq yeni böyük həcmli neft ixracına imkan verəcəkdir. Neft hasilatı sürətlə artır və ixrac edilən neftin miqdarı 2008-ci ildə günə 1.1 milyon bareldən artıq olacağı gözlənilir. Əlavə olaraq, Xəzər dənizi hövzəsindən Azərbaycanın ərazisi ilə Aİ və dünya bazarlarına neftin artırılmış tranziti inkişaf etməkdədir. Bu kontekstdə, Aİ-də və onun qonşu ölkələrində Xəzər dənizi hövzəsindən Aİ-nin təchizatının artırılması məqsədini daşıyan karbohidrogen infrastruktur layihələrində Azərbaycanın tam tərəfdaş qismində iştirak etmək qərarı Aİ-nin enerji bazarına Azərbaycanın daha sıx inteqrasiyasına doğru əlavə mühüm addımı təşkil edə bilərdi.

Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə Qazaxıstandan neft nəqlinə dair Azərbaycan və Qazaxıstan arasında imzalanmış Sazişin vacibliyini vurğulayaraq, hər iki tərəf bu enerji dəhlizinin sonrakı inkişafı üçün əməkdaşlıq etməyə razıdırlar.

2.2 Azərbaycanın qaz ötürücü sistemi təqribən 4000 km uzunluğu olan əsas boru kəmərlərindən və 7 kompressor stansiyasından ibarətdir ki, bu da daxili bazarın qaz təchizatını təmin edir. Hal-hazırda qaz Rusiyadan və bir qədər az həcmdə İrandan tədarük edilir.

2.3 İri neft və qaz şirkətləri tərəfindən inkişaf etdirilən Azərbaycanın Şah Dəniz yatağından gələcək yeni qaz 2006-cı ildən etibarən Cənubi Qafqaz Boru kəməri ilə Türkiyə və Gürcüstana ixrac ediləcəkdir. Bununla yanaşı, daxili tələbat və ixrac üçün qaz hasilatının davamına dair planlar mövcud qaz infrastrukturunun bərpası və yenisinin qurulması məsələsini qaldırır.

2.4 Əlavə olaraq, Xəzər hövzəsindən təchiz ediləcək qazın yeni dəhlizlə Azərbaycana çatdırılmasının və sonradan Aİ-yə ötürülməsinin mümkünlüyü birgə tədqiqatın mövzusudur.

2.5 Mövcud neft və qaz təchizatı şəbəkəsinin Azərbaycan və Aİ üçün əhəmiyyətini, eyni zamanda onun gələcək inkişafı və genişlənməsi potensialını nəzərə alaraq, tərəflər aşağıdakı sahələr üzrə birgə əməkdaşlıq proqramı istiqamətində işləyəcəklər:

a) zəruri hesab edilərsə, infrastrukturun müasirləşdirilməsi planının hazırlanması məqsədilə mövcud karbohidrogen tranzit və təchizat şəbəkəsinin münasib hallarda qiymətləndirilməsi,

b) Azərbaycanın tranzit və ixrac boru kəməri şəbəkəsinin etibarlılığını və təhlükəsizliyini gücləndirmək üçün yolların araşdırılması,

c) xüsusilə qaz sahəsində, enerji təchizatı təhlükəsizliyinin təmin edilməsində Azərbaycana yardımın göstərilməsi,

d) Azərbaycan və sonradan Aİ istiqamətində qaz və neft üçün əlavə mənbələrin və təchizat marşrutlarının müəyyən edilməsi və təşviq olunması,

e) Azərbaycanın karbohidrogen sektorunun texniki norma və standartlarının Aİ-nin sənaye təcrübəsinə uyğunlaşdırılmasının təşviq olunması,

f) neft məhsullarının keyfiyyət və ekoloji standartlarının Aİ standartlarına uyğunlaşdırılması,

g) Azərbaycanın Yanacaq-Enerji Kompleksinin İnkişafı üzrə Dövlət Proqramının "Neft və Qaz Bölməsinin" məqsədlərinin həyata keçirilməsi üçün münasib hallarda Azərbaycana yardımın göstərilməsi,

h) neft və qaz hasilatı və nəqli sənayelərində ekoloji standartların Aİ-nin standartlarına yaxınlaşdırılması üçün Azərbaycana yardımın göstərilməsi,

i) yandırılan və havaya buraxılan qazın həcminin azaldılmasında Azərbaycana yardımın göstərilməsi.

2.6 Zərurət olduğu təqdirdə, karbohidrogen proqramları çərçivəsində yuxarıda göstərilən əməkdaşlıq sahələrində həm Azərbaycanın texniki təcrübəsindən, həm də Aİ-nin texniki yardımından istifadə edilə bilinəcəkdir.

## 3. ENERJİYƏ TƏLƏBATIN İDARƏ EDİLMƏSİ ÜZRƏ HƏRTƏRƏFLİ SİYASƏTİN İNKİŞAF ETDİRİLMƏSİ

3.1 Hər iki tərəf, Azərbaycanın enerji sektorunda, tələbatın idarə edilməsi, enerji tariflərinin şəffaflığı, enerji səmərəliliyinin təşviqatı, bərpa olunan enerji mənbələrinin və əvəzedici yanacağın inkişaf etdirilməsi, BMT-nin İqlim Dəyişməsi haqqında Çərçivə Konvensiyasında qeyd olunan məqsədlərə riayət olunması və Kioto Protokolu mexanizmlərinin həyata keçirilməsi və davam etdirilməsini birləşdirən davamlı enerji siyasətinin hazırlanmasına xüsusi əhəmiyyət verir. Bu baxımdan, Aİ Azərbaycanı bu məsələlər üzrə bütün Avropa proqramlarına daxil edəcəkdir.

3.2 Azərbaycanda enerji səmərəliliyinə dair tədbirlərin və alternativ enerji mənbələrinin inkişaf etdirilməsi baxımından, hər iki tərəf Azərbaycanın 2004-2013-cü illər üzrə Alternativ və Bərpa olunan Enerji Mənbələrindən İstifadə edilməsi üzrə Dövlət Proqramının icrasına kömək edəcək və onun həyata keçirilməsi üçün Fəaliyyət Planının hazırlanması, o cümlədən enerji səmərəliliyi və bərpa edilən enerji mənbələri məsələləri ilə məşğul olan təsisatların gücləndirilməsi istiqamətində addımlar atacaqlar.

## 4. TEXNİKİ ƏMƏKDAŞLIQ VƏ TƏCRÜBƏ MÜBADİLƏSİ

4.1 Enerji sahəsində Aİ-Azərbaycan Strateji Tərəfdaşlığına texniki yardım daxil olmaqla, hər iki tərəf enerji texnologiyası və təcrübə mübadiləsi sahələrində əməkdaşlığı genişləndirəcəklər. Bu sahədə əməkdaşlıq imkanlarına (birgə müəyyən ediləcək) aşağıdakılar daxildir:

- Enerji sahəsində Azərbaycanın gələcək tənzimləyici qurumlarının Aİ-nin tənzimləyici qurumları ilə eyniləşdirilməsi;
- Azərbaycanın enerji sektorunda müasir Avropa texnologiyasının tətbiqi (tədqiqat və inkişaf);
- Enerji sahəsində təhlükəsizliyə və etibarlılığa dair təcrübə mübadiləsi;
- Qarşılıqlı sərmayə qoyuluşunun təşviq edilməsi;

- Strateji Tərəfdaşlıqda müəyyən edilmiş prioritet məsələlərə yönəlmiş müvafiq təlim;
- Nou-haunun inkişaf etdirilməsi və texnoloji biliklərin əldə olunması üçün məlumatın yayılması və ötürülməsi.

## 5. YEKUN MÜLAHİZƏLƏR

Hazırkı Strateji Tərəfdaşlığın həyata keçirilməsinin dəstəklənməsi üçün mütəxəssis təcrübəsinə olan ehtiyacı nəzərə alaraq, xüsusilə Avropa Qonşuluq və Tərəfdaşlıq Sənədi (AQTS) vasitəsi ilə Aİ-nin texniki yardımı və maliyyə dəstəyindən istifadə edilə bilər.

Hər iki tərəf, həmçinin, razılığa gəldi ki, birgə müəyyən ediləcək prioritetlərə uyğun olaraq, digər sahələrdə də strateji tərəfdaşlıq imkanları ciddi diqqətə layiqdir. Azərbaycan, bundan başqa, təhsil, kənd təsərrüfatı və nəqliyyat sahələrinə də önəm verir.

Enerji və Nəqliyyat Alt-Komitəsi, həmçinin Aİ-Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsində gələcəkdə təsis edilə biləcək hər hansı digər müvafiq alt-komitə hazırkı Strateji Tərəfdaşlığın həyata keçirilməsində istifadə edilə bilər. Sənaye də daxil olmaqla, həmçinin xüsusi məsləhətləşmə prosesi təsis edilə bilər.

Hazırkı sənəd yalnız siyasi niyyəti ifadə edir və heç bir hüquqi öhdəlik yaratmır. Bununla yanaşı, bu sənəd, hazırlanması hazırkı Anlaşma Memorandumundan irəli gələn müvafiq məsələlərin inkişafından asılı olacaq hüquqi sazişlə bağlı tərəflər arasında gələcək mümkün müzakirələr üçün əsasdır.

Hazırkı Strateji Tərəfdaşlıq hər iki Tərəfin imzaladığı gündən etibarən qüvvəyə minir.

7 noyabr 2006-cı il tarixində Brüssel şəhərində Azərbaycan və ingilis dillərində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası adından** | **Avropa İttifaqı adından** |

| | | |
|---|---|---|
| **Ilham Aliyev**<br>**Azərbaycan Respublikasının Prezidenti** | **Matti Vanhanen**<br>**Avropa İttifaqı Avropa Şurasının Prezidenti** | **José Manuel Durão Barroso**<br>**Avropa Komissiyasının Prezidenti** |